# V BÖLMƏ
# İNFORMASİYA TEXNOLOGİYALARI VƏ XİDMƏT SAHƏLƏRİNİN İNKİŞAFI

UOT 338.002.6

*Şahraz Müzəffər oğlu İBRAHİMOV*
*a.e.i., AMEA-nın İqtisadiyyat İnstitutu*

*Elxan Asif oğlu RZAYEV*
*Azərbaycan Kooperasiya Universitetinin*
*"Mühasibat uçotu və audit" kafedrasının doktorantı*

## İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASINDA İNFORMASİYANIN ROLU

*Xülasə*

Məqalədə iqtisadi təhlükəsizliyin mahiyyəti, yaranma tarixi verilmiş, dövlətin milli təhlükəsizliyinin təmin olunmasında informasiyanın rolundan bəhs edilmişdir. İqtisadi təhlükəsizliyin təmin olunmasında informasiyaların, xüsusi ilə mühasibat uçotu informasiyalarının rolu məsələsinə baxılmış, müasir şəraitə uyğun müəyyən araşdırmalar verilmişdir.

***Açar sözlər:** iqtisadi təhlükəsizlik, informasiya, İKT, idarəetmə, qərarların qəbulu, iqtisadi fəaliyyət, xarici- iqtisadi əlaqələr.*

### *Giriş*

Qloballaşan dünya iqtisadiyyatı ölkəmizdə davamlı sosial-iqtisadi inkişafın təmin olunmasını mütləq qaydada zəruri etmişdir ki, bu da xarici iqtisadi əlaqələrin daha da genişlənməsini tələb edir. Belə bir şəraitdə iqtisadi təhlükəsizliyin təmin olunması xüsusi əhəmiyyət kəsb edir. Davamlı və sürətli iqtisadi inkişafın təmin olunmasında ölkələrarası xarici-iqtisadi, ticari əlaqələrin artması əhalinin istehlak mallarına olan tələbatının daha dolğun ödənilməsində, həmçinin iqtisadiyyatın strukturunun formalaşmasında, beynəlxalq əmək bölgüsündə müstəsna rol oynayır. Xarici iqtisadi fəaliyyətin milli maraqlara uyğun şəkildə genişləndirilməsi və inkişafı üçün ölkənin iqtisadi, o, cümlədən, xarici ticarət potensialının davamlı inkişafı və bupotensialın səmərəli reallaşdırılmasını təmin etməklə, iqtisadi təhlükəsizliyinin nəzərə alınması istiqamətində məqsədyönlü, ardıcıl və sistemli siyasət aparılmasını tələb edir. İqtisadi təhlükəsizlik milli iqtisadiyyatın səmərəli, dinamik yüksəlişini, onun cəmiyyətin, dövlətin, fərdin tələbatlarını ödəyə bilməsi üçün əlverişli olan daxili və xarici şəraitlərin məcmusudur. İqtisadi maraqlar üçün birbaşa təhlükəni ictimai təkrar istehsalın normal gedişini pozan iqtisadi təhdidlər yaradır.

İxrac məhsulları qiymətlərinin kəskin şəkildə düşməsi və ya idxal olunan əmtəələrin qiymətinin qalxması xarici bazardan yüksək asılılıq şəraitində iqtisadiyyatın vəziyyəti üçün olduqca təhlükəlidir. Ölkədən geniş miqyasda maliyyə vəsaitinin axması milli iqtisadi təhlükəsizlik üçün ən ciddi təhlükələrdən biridir. Ölkənin yalnız iqtisadi deyil, həm də siyasi təhlükəsizliyi üçün təhlükə yaradan ən ciddi iqtisadi xarici problemlərdən biri də xarici borc problemidir. Xarici borcun yüksək səviyyədə olması dövlətin öz milli maraqlarında müstəqil xarici siyasət aparmaq imkanlarını şübhə altına alır, çünki ölkə daim aparıcı kreditorlarının fikrini nəzərə almalıdır. Elmi-texniki inqilabın genişləndiyi indiki şəraitdə iqtisadi təhlükəsizliyin təmin olunmasının aktuallığı günü-gündən artmaqdadır.

**İqtisadi təhlükəsizliyin mahiyyəti**

Qədim dövrlərdən başlayaraq təhlükəsizlik insanların səxsi və ictimai həyatında mühüm rol oynamışdır. Təhlükəsizlik sözü bir neçə mənada istifadə olunurdu. Təhlükəsizlik deyəndə fərdi

təhlükəsizlik, ictimai təhlükəsizlik, ərazi təhlükəsizliyi və dövlətin təhlükəsizliyi anlamına gəlirdi. Ümumilikdə elmi ədədbiyyatda "təhlükəsizlik" anlayışı ilk dəfə XII əsrdə Avropada işlədilmişdir. O vaxtdan bu anlayış insan mənəviyyatını hər cür təhlükədən qorumaq mənasını vermişdir. Lakin bu anlayış XVII əsrə kimi az işlədilmişdir. Bunun əsas səbəbi bu anlayışın "polis" termini ilə əvəzlənməsidir. Bu dövrdə "polis"anlayışı daha çox işlənmiş və bu anlayışın məzmunu daha əhatəli olmuşdur. Belə ki, onun məzmunu dövlət quruluşunu, dövlətin idarəetmə sistemini özündə ehtiva etmiş və məqsədi dövlətin yaxşı yaşamasını və təhlükəsizliyini təmin etmək idi.

XVII- XVIII əsrlərdə əmtəə - pul münasibətlərinin inkişafı ilə əlaqədar olaraq bazar iqtisadiyyatı sisteminin formalaşması dövlətin məqsədinin dəyişməsinə səbəb olmuşdur. Başqa sözlə, dövlətin təhlükəsizliyi ön plana keçmiş və onun məzmununda dəyişiklik əmələ gəlmişdir. Onun məzmununa ölkənin daxilində sakitliyi təmin etmək, insanları fiziki və mənəvi təhlükələrdən qorumaq, siyasi və iqtisadi sahələrin təhlükəsizliyini təmin etmək kimi komponentlər də daxil edilmişdir

Məsələn, 12-ci əsrdə istifadə olunan təhlükəsizlik deyəndə insanın mənəvi vəziyyətinin stabil, sakit olması bildirilirdi, hansı insanlar ki, özlərini bütün təhlükələrdən qorunmuş sayırdı. Lakin dövr dəyişdikcə, inkişaf artdıqca təhlükə növləri çoxalırdı. Əgər qədim dövrlərdə dövlət bütün gücünü əsasən ordu quruculuğuna verirdisə, zaman keçdikcə anlamaga başladılar ki, ordunun gücü birbaşa iqtisadiyyata bağlanır. Getdikcə kəşfiyyat orqanları inkişaf edir və kəşfiyyatın inkişafı ilə təhlükəsizlik orqanları başa düşürlər ki, hərbi qüvvə ilə yox, iqtisadi müharibə aparmaqla dövlətin ordusunu, dövlətin iqtisadiyyatını zəiflədərək dövləti məhv eləmək daha asan olar. Ulu öndərimiz Heydər Əliyevin tarixə qızıl qələmlə yazdığı sözlər burada öz yerini tapır: "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdi". [1, s. 3] Bütün bunlara baxaraq tarixə nəzər salanda görürük ki, ilk dəfə XVIII əsrdə Avropa dövlətləri dövlətin təhlükəsizliyinin birbaşa iqtisadi inkişafla yanaşı olduğunu başa düşmüşlər.

Bəzi mənbələrdə göstərildiyi kimi ilk dəfə "İqtisadi təhlükəsizlik" termini Amerika Birləşmiş Ştatları prezidenti F.D.Ruzveltin 1934-cü il əmrinə əsasən "Federal İqtisadi təhlükəsizlik Komitəsi və Məsləhət Şurası" yaradılması ilə verdiyi fərmanda öz əksini tapmışdır. Lakin bu qurum fiziki şəxslərin iqtisadi təhlükəsizliyini qoruyurdu, daha dəqiq desək, işsizliyin qarşısını almaqla məşğul idi. Böyük Vətən müharibəsindən sonra başlayan "Soyuq müharibə" ərəfəsində təhlükəsizlik deyəndə bütün anlamlar güc strukturlarının qüdrətinin artırılması ilə bağlı olmuşdu. Onların məqsədi digər dövlətlərdən onların fəaliyyəti, iqtisadi gücü, gələcək planları haqqında məlumatları oğurlamaqdan ibarət olmuşdur. Bu halda ən böyük yük kəşfiyyat orqanlarının üzərinə düşürdü Həmin dövrlərdə kəşfiyyat və əks-kəşfiyyatın əsas vəzifələri silahlanma yarışına yönəlmişdi. Bütün gücü xarici kəşfiyyata vermişdilər, daxili təhlükəsizlik haqqında elə də fikirləşmirdilər. Lakin 1973-cü ildə ilk baxışda adi oğurluq kimi görsənən bir əməliyyat sonda böyük bir qalmaqala çevrilmişdir. Bu əməliyyat nəticəsində Sovet İttifaqında dövlət ilk dəfə "kölgə" iqtisadiyyatının mövcudluğu və onun geniş əhatəsi ilə rastlaşdı. "Sexovşiklər" adı almış bu işin sonu ona gətir çıxardı ki, Sovet İttifaqında dövlət rəhbərləri başa düşdülər ki, ordu, silah kimi vacib sahələrlə yanaşı, ölkənin iqtisadi təhlükəsizliyini təmin etmək lazımdır. Həmin dövrdən Sovetlər İttifaqında iqtisadi təhlükəsizliklə bağlı sahələr yaradıldı və bu sahə üzrə mütəxəssislər hazırlamağa başladılar. Hesab edirik ki, sovet iqtisadiyyatının getdikcə pis vəziyyət alması səbəblərindən biri də "kölgə" iqtisadiyyatının geniş vüsət alması ilə bağlı idi. Təəssüf ki, bu gün müstəqil respublikamızda da "kölgə" iqtisadiyyatı geniş yayılmışdır. İri və orta həcmli müəssisələrin (firma, şirkət, Holdinq) əksəriyyəti ikili mühasibatlı, yəni "kölgə" iqtisadiyyatı şəraitində işləyirlər ki, bunun yeganə yolu kimi İKT imkanlarından istifadə edərək ölkədə tam nağdsız əməliyyatlara keçilməsidir.

Müasir dövrdə iqtisadi təhlükəsizlik anlayışının aktuallığı daha da artmaqdadır. İstər siyasi, istərsə də iqtisadi rəqabətin güclənməkdə davam etdiyi hazırkı cəmiyyətdə iqtisadi təhlükəsizliyin əhəmiyyəti yüksəlməkdədir. Bəs, iqtisadi təhlükəsizlik nədir? İqtisadi təhlükəsizlik anlayışı





iqtisadi nəzəriyyə və politologiya ilə əlaqədə olan bir kateqoriyadır. Bu anlayış özündə iqtisadi asılılıq, sabitlik, iqtisadi təzyiq, iqtisadi təxribat, iqtisadi suverenlik və başqa kateqoriyaları cəmləşdirir.İqtisadi təhlükəsizlik milli iqtisadiyyatın səmərəli dinamik yüksəlişi, onun cəmiyyətin, dövlətin, fərdin tələbatlarını ödəyə bilməsi üçün əlverişli olan daxili və xarici şəraitlərin məcmusudur. İqtisadi maraqlar üçün birbaşa təhlükəni ictimai təkrar istehsalın normal gedişini pozan iqtisadi təhdidlər yaradır. Ən ümumi şəkildə iqtisadi təhlükəsizlik daxili və xarici olmaqla iki istiqamətə bölünə bilər.İqtisadi təhlükəsizlik anlayışı ümumi və geniş məfhumdur. Ona görə də beynəlxalq və regional iqtisadi təhlükəsizliyi, milli iqtisadi təhlükəsizliyi, habelə ölkə daxilində müəssisələrin və fərdlərin iqtisadi təhlükəsizliyini bir-birindən fərqləndirmək lazımdır.

Amerika mütəxəssislərinin fikrinə görə iqtisadi təhlükəsizlik ən azı iki şərtə cavab verməlidir:

1. Ölkənin iqtisadi müstəqilliyini saxlamaq, təsərrüfatın inkişafına aid qərarların qəbul edilməsi qabiliyyətini itirməmək;
2. Əhalinin əldə edilmiş həyat səviyyəsini saxlamaq və sonralar onu yüksəltmək imkanı.

İqtisadi təhlükəsizliyin məqsədi hər şeydən əvvəl dövlətin milli marağını qorumaqdır.

Əgər əvvəllər məlumatlar kagız üzərində idi və bu məlumatı oğurlamaq üçün fiziki şəxslər həmin məlumatın olduğu otaqda olmalı idilərsə informasiya-kommunikasiya texnikaları inkişaf etdikcə bütün məlumatlar kagiz üzərindən rəqəmsal dünyaya keçir. Bu da ona gətirir ki, kəşfiyyat orqanları uzaqdan bazalara hücum edərək məlumatı ogurlaya bilərlər. Buna görə də İqtisadi Təhlükəsizlik birbaşa İnformasiya Kommunikasiya Təhlükəsizliyindən (İKT) asılıdır.

Ümumiyyətlə, müasir şəraitdə iqtisadi təhlükəsizliyin məqsədi İKT rolunu göstərməklə, iqtisadi təhlükəsizliyin əsasən hansı amillərdən daha çox asılılığını müəyyən etməkdən ibarətdir. Bildiyimiz kimi, müəssisələrin və dövlətin bütün iqtisadi güc parametrləri mühasibat uçotu göstəriciləri ilə müəyyən olunur və uçot və hesabatlarda öz əksini tapır. Buradan belə qənaətə gəlmək olur ki, mühasibat uçotu informasiyalarının hazırlanması, istifadə olunması və qorunub saxlanmasının iqtisadi təhlükəsizliyin təmin olunmasında rolu günü- gündən artır.

İqtisadi təhlükəsizliyin mahiyyətini prof. V.K.Krutikov "İqtisadi təhlükəsizlik" kitabında belə açıqlamışdır: "İqtisadi təhlükəsizlik mövzusu kifayət qədər sosial, siyasi, müdafiə (hərbi) qabiliyyətli və mütərəqqi inkişafı təmin edən bir iqtisadiyyat dövlətidir". [2, s. 215]

Cəmiyyətin inkişafı getdikcə İKT inkişafını zəruri etmişdir ki, bu da digər sahələrin inkişafına təsir edərək müasir inkişaf səviyyəsinə gətirib çıxarmışdır. Ümumiyyətlə, iqtisadi təhlükəsizliyi 3 yerə bölmək olar:

1. Milli iqtisadi təhlükəsizlik;
2. Lokal iqtisadi təhlükəsizlik;
3. Şəxsi iqtisadi təhlükəsizlik.

Milli iqtisadi təhlükəsizliyi 8 səviyyəyə bölmək olar.

1. Demoqrafik təhlükəsizlik;
2. İqtisadi təhlükəsizlik;
3. Mənəvi-ruh təhlükəsizliyi;
4. İnformasiya təhlükəsizliyi;
5. Ekoloji təhlükəsizlik;
6. Siyasi təhlükəsizlik;
7. Müdafiə (hərbi) təhlükəsizliyi;
8. Sosial təhlükəsizlik.

V.K.Krutikov "İqtisadi təhlükəsizlik" kitabında Milli təhlükəsizliyin strukturunu sxem 1-dəki kimi göstərib [3, s. 17]. Lakin müəllif bu sxemi dəyişərək öz fikrini getdikcə daha da təkmilləşdirir. Krutikov deyir ki, bu sahələr bir-biri ilə sıx əlaqədə işləyərək Milli iqtisadi təhlükəsizliyi təmin etməlidir. Lakin müəllifin müşahidəsi onu göstərir ki, həmişə "insan faktoru" deyilən amil var. İnsan amilini təhlükəsizlik sistemlərində baş verən nöqsanların başlıca səbəbi kimi göstərərək onun iqtisadiyyat üçün böyük fəsadlar törətdiyini qeyd edir. [3, s. 124].




***Sxem 1.***

Dünya öz inkişaf mərhələsində getdikcə rəqəmsal dünyaya keçdikcə, süni intellektin inkişafı artdıqca insanların yaşayış şəraiti də yüksəlir. Yüksək texnologiyalar hər yerdə özünü göstərir. Lakin, yüksək texnologiyalar inkişafı getdikcə cəmiyyətin inkişafında müəyyən problemlər də yaradır. Bəzi insanlar bu texnologiyaları əks tərəfə istifadə edirlər, məsələn: terrorizm, xakerlik, şəxsi maraqlar və s. Hətta terrorizm belə İKT istifadə edərək öz çirkin əməllərini tətbiq edirlər. Bu gün qlobal problemlərdən biri terrorizmdır. Bu gün heç bir terror hadisəsi yüksək texnologiyalarsız baş vermir. Bütün terrorların başlıca məqsədi ölkə iqtisadiyyatına ziyan vurmaqdır. Sxem 2-də müəllif öz görüşünü təqdim edir.




***Sxem 2.***

Sxem 2-də müəllif İqtisadi təhlükəsizliyi Milli təhlükəsizlikdə birinci yerdə göstərib. Verilmiş digər təhlükəsizliklərin hamısına ziyan vurmaq üçün birinci maliyyə olmalıdır, bundan sonra İnformasiya təhlükəsizliyini dağıtmaq lazımdır. Nəzərə alsaq ki, bütün dövlət orqanları və qeyri-dövlət orqanları bu gün bütün məlumatları informasiya texnologiyalarından istifadə edərək fiziki avadanlıqlarda "Yaddaş qurğusu" adlanan avadanlıqlarda saxlayırlar. Dünya praktikasında maraqlı bir fakt. İranın Buşer atom elektrik stansiyasına vurulmuş külli miqdarda maddi ziyan informasiya texnologiyalarından istifadə edərək vurulmuşdu. Stuxned adı ilə tanınan virus 2010-cu ildə İrana külli miqdarda maddi və mənəvi ziyan vurdu. Maraqlı fakt odur ki, bu virusu işə salmaq üşün insan faktorundan istifadə etmişdilər. İnsan faktoru-informasiya təhlükəsizliyində insanın bilmədən, savadsızlığı nəticəsində vacib məxfi məlumatları kənara ötürmək olur. Məsələn, belə





məlum olmuşdur ki, xaricdə keçirilən bir simpoziumda hamıya flaş kart paylamışlar. Simpoziumda iştirak edən İran alimləri bu flaş kartdan vətənə qayıdandan sonra istifadə eləmişdilər. Bu fleş kartı USB-dən istifadə edərək kompyuterə salan kimi virus keçir əməliyyat sisteminə və orda sakitcə oturur. Heç bir antivirus proqramı onu tapa bilmir. Həmin kompyuterə novbəti flaş kartı salanda bu virus həmin flaş karta köçür. Beləliklə, şəbəkədə olmayan tam məxfi formada saxlanan kompyuterlərə bu flaş kartdan hansısa taxılsa idi o dəqiqə virus həmin kompyuterə köçürdü. Bütün bunların nəticəsi olaraq İranın nüvə zavodunda centrofuqalar sıradan çıxdı və bu avadanlıqları bərpa eləmək üçün İrana 2 il lazım oldu.

Beləliklə, araşdırmalardan aydın olur ki, "İqtisadi təhlükəsizlik" anlayışı bazar iqtisadiyyatı sisteminin mövcud şəraitində dövlətin, müəssisələrin davamlı inkişafı baxımından mühüm bir amilə çevrilmiş, cəmiyyətin inkişaf səviyyəsi və beynəlxalq əmək bölgüsünün dərinləşməsi ilə birbaşa əlaqədardır. Müasir bazar iqtisadiyyatı sisteminin inkişafı dövlətlərin xammal mənbələri, satış bazarları uğrunda mübarizə aparmaları,birinin digərinə təhlükə yaratması, eyni zamanda dövlətin daxilində əhalinin az bir qrupunun həddindən çox zənginləşməsi, çoxluğun isə yoxsullaşması təhlükəsini artırır və buna görə də daxildə təhlükəsizliyin təmin olunması zərurətə çevrilir.

***Nəticə***

Ölkənin iqtisadi təhlükəsizliyini təmin etmək üçün həm xarici sosial-iqtisadi, həm də daxili sosial-iqtisadi təhlükəni aradan qaldırmaq əsas məsələdir. Xarici sosial-iqtisadi təhlükəyə aşağıdakıları aid etmək olar: Azərbaycanın sənayecə inkişaf etmiş dövlətlərin xammal-yanacaq əlavəsinə çevrilməsi meylinin artması. Azərbaycanın ixrac etdiyi əmtəələrin çox hissəsinin xam neftin payına düşməsi bunu sübut edir.Bunlar Azərbaycanın iqtisadiyyatına böyük təhlükə törədə bilən amillərdir. Ona görə də dövlətimiz bunun qarşısını almaq üçün bir çox tədbirlər görür. Bu tədbirlərə daxildir:

- Təbii resursların səmərəli istifadə edilməsi və ona nəzarətin gücləndirilməsi;
- Yanacaq - xammal resurslarının hasilatı və emalı sahəsində modernləşdirmə siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi;
- Rəqabət qabiliyyətli texnologiyaların tətbiqi;
- İdxaldan asılılığın azadılması və daxili bazarın qorunub inkişaf etdirilməsi;
- Dünya bazarına rəqabət qabiliyyətli məhsul istehsal etmək və istehsal prosesində uçot - hesabatların MHBS-yə uyğunlaşdırılması;
- müəssisələrdə son məhsul istehsalının xüsusi çəkisinin artırılması və kölgə iqtisadiyyatının (ikili mühasibatın) aradan qaldırılması;
- İxracın diversifikasiyası, yəni bir - birilə əlaqəsi olmayan bir çox məhsulların çeşidlərinin və istehsal həcminin eyni vaxtda inkişaf etdirilməsi;
- Xarici - iqtisadi əlaqələrdə şəffaflığın təmin edilməsi və s.

Azərbaycanın iqtisadi təhlükəsizliyində ən çox daxili sosial-iqtisadi təhlükə ölkənin iqtisadiyyatının strukturunun formalaşmasını təşkil edən göstəricilərin hansı səviyyədə olmasından asılıdır. Ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasında bu göstəricilər həddindən artıq çoxdur. Bunlar bir-birilə qarşılıqlı əlaqədə fəaliyyət göstərərək bir-birini şərtləndirsə də iqtisadi təhlükəsizliyin təmin olunmasında əhəmiyyətinə və yerinə görə fərqlənirlər. Məhz buna görə də həmin göstəriciləri ayrı- ayrılıqda qiymətləndirmək lazımdır.

## ƏDƏBİYYAT


1. "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunu.
2. Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər).
3. В.К.Крутиков, Т.В.Дорожкина, О.И.Костина, М.В.Якунина. Экономическая безопасность. Учебно-методическое пособие (Калуга - 2017).

4. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2003-2008-ci illər).
5. "2015-2018-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı".
6. Bərxudarov Mənsur, Məmmədov Nüsrəddin. İqtisadi Təhlükəsizlik. Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2006, 452 s.
7. Kərimli İ.A. Dünya iqtisadiyyatı: beynəlxalq ticarət, maliyyə və inkişaf. Bakı: "CBS", 2006, 166 s.
8. В.Сенчагов. Экономическая безопасность как основа обеспечения национальной безопасности. Вопросы экономики. 2001, №8.
9. Л.Абалкин. Макроаспекты экономической безопасности: факторы, критерии и показатели. Вопросы экономики. 1994, №12.
10. Экономика стран содружества в условиях глобализации и итоги развития экономики стран членов СНГ в 2001 году. Вопросы экономики. 2002, №3.

***Шахраз Музаффар оглы Ибрагимов***
***ведущий научный сотрудник, доцент***
***Института Экономии НАН Азербайджана;***

***Ельхан Асиф оглы Рзаев докторант***
***Азербайджанский Университет Кооперации***

**Роль информации в обеспечении экономической безопасности**

***Резюме***

В статье раскрываются сущность экономической безопасности, история создания и роль информации в обеспечении национальной безопасности государства. Была рассмотрена роль бухгалтерской информации, в частности, в обеспечении экономической безопасности, и были проведены некоторые исследования в соответствии с современными условиями.

***Ключевые слова: экономическая безопасность, информация, ИКТ, управление, принятие решений, хозяйственная деятельность, внешнеэкономические связи.***

***Shahraz Muzaffar Ibrahimov***
***Leading Researcher, Associate Professor***
***Institute of Economics, NAS of Azerbaijan;***

***Elkhan Asif Rzayev***
***doctoral student Azerbaijan Universetity of Cooperation***

**The role of information in the development of economic infertility**

***Summary***

The article reveals the essence of economic security, the history of creation and the role of information in ensuring the national security of the state. The role of accounting information was considered, in particular, in ensuring economic security, and some studies were carried out in accordance with modern conditions.

***Key words: economic security, information, ICT, management, decision-making, economic activity, foreign economic relations.***